# Məqsədimiz peşəkarlar hazırlamaqdır

*"Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik".*

**İlham ƏLİYEV.**

Son illər ərzində, Azərbaycan Respublikasında peşə təhsilinin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilmiş, ölkədə təhsilin müasir tələblərə cavab verən normativ-hüquqi bazası yaradılmışdır. Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə, təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Ötən dövr ərzində Azərbaycan hökuməti tərəfindən peşə təhsilinin inkişaf etdirilməsi sahəsində bir sıra mühüm qərarlar qəbul edilmişdir. Peşə təhsili üzrə dövlət standartları müəyyən edilmiş, qruplarda tələbə sıxlığı barədə, peşə təhsilinin bir səviyyəsindən digərinə keçid və digər normativ-hüquqi sənədlər qəbul edilmişdir. Ən başlıcası isə, artıq peşə təhsili müəssisələrində təhsilalanlar şagird yox, tələbə statusu daşıyırlar.

2019-2020-ci tədris ilində Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə cəmi 444 nəfər, o cümlədən, dövlət büdcəsi hesabına 321 nəfər, ödənişli əsaslarla 123 nəfər tələbə qəbul edilmişdir. Tələbə qəbulu ASAN xidmət tərəfindən həyata keçirilmişdir və bu tədris ilində də, qəbul həmin xidmət tərəfindən aparılacaqdır.

Təhsil Mərkəzində təhsil müddəti yarım, 1, 2 və 3 il olan təhsil proqramları üzrə həyata keçirilir, 3 illik ümumi orta təhsil (9-cu sinif) bazasından qəbul olunan tələbələr üçün nəzərdə tutulmuşdur və təhsilalanlar üçün daha geniş imkanlar yaradır. Belə ki, 3 il təhsil alan tələbə, peşə-ixtisası ilə eyni zamanda həm də, tam orta təhsil haqqında attestat da əldə edir və gələcəkdə ali təhsil almaq imkanına malik olur.

Bu tədris ilində mərkəzimizdə 23 ixtisas üzrə 480 nəfər tələbə təhsil almışdır. Aqrar sahə üzrə - aqroservis mütəxəssisi, bitkiçilik mütəxəssisi, heyvandarlıq mütəxəssisi, kimyəvi-bakterioloji analiz laborantı, üzümçülük və şərab ustası, turizm sahəsi üzrə - aşpaz, mehmanxana inzibatçısı, turizmdə iaşə üzrə mütəxəssis, turizm təşkilatçısı və iqtisadiyyatın digər sahələr üzrə - elektrik montyoru, çilingər-santexnik, dülgər, xalçaçı, tikişçi, əməliyyatçı-mühasib, kompüter operatoru və mühafizəçi ixtisasları üzrə kadr hazırlığı aparılmışdır.

Ölkəmizdə ilk dəfə olaraq, dual peşə təhsili və təlimi pilot olaraq, burada həyata keçirilməyə başlandı və kənd təsərrüfatı və turizm ixtisasları üzrə təhsil alan tələbələrimiz bu proqram üzrə hazırlıq keçdilər. Bu da, onların daha səriştəli kadr kimi hazırlanmasına yönəlmişdir. Tədris ilində işəgötürən müəssisələr ilə əməkdaşlığımızı daha genişləndirmişik. Belə ki, dual peşə təhsili və təliminin həyata keçirilməsi və təşkili üçün işəgötürənlərlə birgə Koordinasiya Şurası yaradılmış və bu şuranın köməyi ilə, tələbələrin istehsalat təcrübəsi və iş yerində təlimləri təşkil edilmişdir.

Məlum olduğu kimi, mart ayından etibarən, ölkəmizdə pandemiyaya görə təhsil müəssisələrində təlim-tərbiyə prosesi dayandırılmışdır. Bu dövr ərzində mühəndis-pedaqoji heyətimiz tələbələrlə daim əlaqə saxlamış və çalışmışıq ki, online dərslər keçirilsin. Öz daxili imkanlarımız hesabına 20-dən artıq videodərs çəkilmiş və Təhsil Mərkəzinin "Youtube" kanalında yerləşdirilmişdir. Mütəmadi olaraq, Peşə Təhsili üzrə Dövlət Agentliyinin təşkil etdiyi teledərslərin cədvəli tələbələrə çatdırılmışdır.

Tədris ili artıq başa çatmışdır. Bu il məktəbdə cəmi 329 nəfər, o cümlədən, dövlət büdcəsi hesabına 216 nəfər, ödənişli əsaslarla isə 113 nəfər tələbə məzun olmuşdur. Məzunlarımızın işlə təminatı sahəsində, müəssisələrlə əməkdaşlığı gücləndirmişik və əsasən də, aqrar sahə üzrə kadr ehtiyacları bizim məzunların hesabına ödənilir. Məzunlarımız iri kənd təsərrüfatı müəssisələrində mütəxəssis kimi çalışırlar.

Tələbələrin təlim-tərbiyəsi sahəsində ciddi işlər görülmüşdür. Bunun nəticəsi olaraq, qeyd etmək lazımdır ki, məktəbimizin tələbələri arasında narkomaniyaya qurşanma halları olmamış, qanun və hüquq pozuntusuna yol verilməmişdir. Bunun üçün məktəbdə tələbələrin asudə vaxtlarını təşkili sahəsində müxtəlif tədbirlər həyata keçirilmişdir. İl ərzində müxtəlif mövzularda, maraqlı tədbirlər keçirilmişdir ki, bu da təhsilalanların vətənpərvərlik, humanistlik və digər duyğu və hisslərinin inkişafına yönəlmişdir.

Təhsildə seçilən gənclərə sosial sahibkarlıq, özünəməşğulluq, biznes idarəçiliyi, marketinq, maliyyə savadı və aqroturizm mövzularında təlimlər keçirilmişdir. Təlimlər interaktiv qaydada və təcrübəyə əsaslanan əyani vəsaitlərin təqdimatı ilə təşkil edilmişdir.

2020-2021-ci tədris ilində məktəbə 22 ixtisas üzrə 580 nəfər tələbənin qəbul edilməsi nəzərdə tutulmuşdur. Bu tədris ilinin əvvəlində, məktəbin işəgötürənlərlə əlaqələri daha da yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir. İşəgötürən biznes nümayəndələri ilə yeni tədris ilində də dualabənzər peşə təhsilinin və təliminin tətbiqi ilə müzakirələr aparılmış və razılaşdırılmışdır. Məlum vəziyyətə görə, hələlik peşə yönümü sahəsində fəaliyyətimiz kiçik qruplar şəklində yaşayış məntəqələrində təbliğat işlərinin aparılması və ayrı-ayrı ümumtəhsil müəssisələrinin rəhbər işçiləri ilə görüşlər keçirməklə məhdudlaşır.

Karantin tədbirləri yumşaldıqdan sonra bu sahədə fəaliyyətimizi aktivləşdirməliyik.

Azərbaycan Respublikası Prezidentinin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" məlum Sərəncamına əsasən, 11 sektor üzrə Azərbaycan iqtisadiyyatının iqtisadi inkişaf strategiyasında və tədbirlər planında, peşə təhsilinə xüsusi yer ayrılması bu sahənin perspektivdə inqilabi sıçrayışına stimul verəcəkdir.

Yaxın perspektivdə başlıca vəzifəmiz müasir əmək bazarının tələblərinə cavab verə biləcək səriştəli və rəqabətqabiliyyətli peşəkarların hazırlığına nail olmaqdır.

**Türkan GÖZƏLLİ.**

*Qan yaddaşımız*

# Ağdərənin işğalı

Ağdərə keçmişdə adı dəyişdirildikdən sonra eyniadlı (Mardakert) rayonun mərkəzi olmuşdur. XIX əsrdə burada məskunlaşdırılmış ermənilər rayonun və qəsəbənin adını 1923-cu ildən Crabert, 1930-cu ildən isə Mardakert kimi rəsmiləşdirmişdilər. 1992-ci ildən rayonun ərazisi Tərtər rayonuna birləşdirilmiş, qəsəbə isə keçmiş adı ilə - Ağdərə adlandırılmışdır. Ağdərə şəhəri 1923-cü ildə yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olan Ağdərə rayonuna tabe edilmişdir. 1960-cı ildə şəhər tipli qəsəbə, 1985-ci ildə şəhər statusu alıb.

İşğaldan əvvəl Ağdərənin ərazisi 1705 km², əhalisi 44,4 min nəfər olub. Ağdərənin rayon tipli iki qəsəbə, 57 kənd, 67 klub, 51 kitabxana, 30 orta məktəb, 27 məktəbəqədər müəssisə, 7 xəstəxana, 1 texniki peşə məktəbi işğal altında qalıb.

Ağdərə şəhəri Dağlıq Qarabağdakı bir çox əraziləri kimi Qarabağ müharibəsinin başlanğıcında ermənı hərbçilərinin nəzarəti altına keçir. 1992-ci ildə Azərbaycan ordusunun hücumu nəticəsində iyulun 4-də Ağdərə şəhəri erməni işğalçılarından azad edilir. 1 il boyunca şəhər ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir. Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Bundan məharətlə istifadə edən Ermənistan ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini yenidən işğal edir.

**"Qəbələ"**

# 27 illik həsrət

1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücüm əməliyyatlarını genişləndirmək imkanı verdi. Ağdam üzərinə edilən birinci hücum nəticəsiz qaldı, ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirdi... Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başladı. 600 minlik erməni-rus ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın milli ordusu dururdu.

42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatdı. Ərazisi 1094 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometir, bir şəhər və 80 kəndi işğal olundu. İşğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşayır. Bunların 17 mini yaşlı nəsilin nümayəndəsidir.

İşğal nəticəsində Ağdamın rayon mərkəzi ilə birlikdə 90 kəndi, 38 kolxozu, 12 sənaye mərkəzi, 74 məktəbi, 271 mədəniyyət evi, 67 idarə və 99 klubu düşmən əlinə keçdi.

Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq vətəndaş şəhid oldu.

Ağdamdan olan məcburi köçkünlər Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşdı.

Ərazisinin 70 faizini itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirdi. 40 min əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda indi 17 min sahədə əkin aparılır.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonunun işğalı nəticəsində ölkəyə ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəydi.

Hər bir azərbaycanlı,hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidlərimiz, musiqi səslərinə möhtac qalmış bərli-bərəkətli torpaqlarımız, ata-babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək.O gün də uzaqda deyil.

**"Qəbələ"**

(Əvvəli ötən nömrələrimizdə).

# Qəbələ - 2500 yaşlı paytaxt şəhərimiz

Maraqlıdır ki, tədqiqatlar zamanı Qəbələnin Qala və Səlbir ərazilərində də Antik dövrə aid tapıntılar aşkar olunmuşdur. Məsələn, 1974-1978-ci illərdə Səlbirin cənub-qərb küncündə tədqiqat aparılarkən orada eradan əvvəl I əsrə aid çay daşından inşa edilmiş möhtəşəm qala bürcü aşkar edilmişdir. Hündürlüyü 14 metr olan və XI əsrədək şəhərin müdafiə sisteminə xidmət etmiş bu düzbucaq formalı bürc yonulmuş çay daşı və əhəng məhlulu ilə tikilib, daha sonra səliqə ilə yonulmuş tuf daşdan üzlük vurulub. Qeyd olunan bürcdən bir qədər şimal tərəfdə tədqiqatlar davam etdirilərkən isə e.ə. I əsrə aid edilən, uzunluğu 35 metr, hündürlüyü 1 metr, qalınlığı 2,4 metr olan daha bir divar qalığı aşkar olunmuşdur.

2008-2009-cu illərin tədqiqatları zamanı isə şəhərin Qala adlanan ərazisinin cənub-şərq tərəfində, Govurlu çayının kənarında e.ə. I əsrinə aid qala divarının qalıqları aşkar olunub. 2010-cu ildə Cənubi Koreyadan olan mütəxəssislər şəhərin Səlbir ərazisinin şimal və qərb kənarlarında analoji divar qalıqları üzə çıxarıblar. Bu tapıntılar bir daha deməyə əsas verir ki, "Albaniyanın baş şəhəri" olan Qəbələnin adının Antik mənbələrdə çəkildiyi dövrdə Səlbir və Qala ərazisində ətrafı möhtəşəm qala divarları ilə möhkəmləndirilmiş şəhər mövcud olub.

Bəzi tədqiqatçılar paytaxtın (əslində isə mərzbanın iqamətgahının) Bərdəyə köçürülməsini 461-ci ildə Sasanilər tərəfindən mərzbanlıq üsul-idarəsinin tətbiqi nəticəsində ölkənin iqtisadi və siyasi həyatında Bərdənin rolunun artması, Qəbələnin mövqeyinin zəifləməsi ilə əlaqələndirməyə səy ediblər. Halbuki bu cür düşünmək üçün heç bir ciddi elmi əsas yoxdur.

Yəni çoxillik arxeoloji tədqiqatlar göstərir ki, Qəbələdə V əsrdən sonra da intensiv şəhər həyatı davam edib. Şəhərin Qala və Səlbir hissəsində aşkar edilən ən möhtəşəm tikintilər, o cümlədən bu günədək öz əzəmətini qoruyub saxlayan cənub qala divarları və bürcləri də məhz V əsrdən sonrakı dövrdə inşa edilib. Arxeoloji materialların təhlili göstərir ki, V əsrdən sonrakı dövrdə Qəbələnin dünyanın bir çox ölkələri və iri ticarət mərkəzləri ilə mədəni-iqtisadi əlaqələrinin miqyası da nəzərəçarpacaq dərəcədə genişlənib. Şəhər xarabalıqlarında və onun ətrafında aparılan tədqiqatlar zamanı tapılmış çoxsaylı sikkələr, Çindən, İrandan, Roma imperiyasından gətirilmiş rəngarəng çeşidli maddi mədəniyyət nümunələri də bunu təsdiq edir.

Xatırladaq ki, IV-VII əsrlərdə Qəbələnin ticarət əlaqələrində daha çox Sasani pullarından istifadə olunub. VIII əsrdən başlayaraq şəhərin ticarət dövriyyəsində ərəb pullarının xüsusi çəkisinin artdığı müşahidə olunur. Bunlarla yanaşı, Qəbələ və onun ətrafından çoxsaylı yerli pullar da tapılmışdır. Bu isə Qəbələnin Albaniyanın digər şəhərləri və şəhər tipli iri yaşayış məntəqələri ilə olan qızğın ticarət əlaqələrinin mövcudluğuna dəlalət edir. Bütün bunlar onu göstərir ki, Sasani mərzbanının iqamətgahının Bərdəyə köçürülməsi heç də Qəbələnin ölkənin əsas şəhəri olmaq funksiyasını itirməsinin nəticəsi kimi izah oluna bilməz. Əksinə, həm yazılı mənbələr, həm də arxeoloji tədqiqatların nəticələri Qəbələnin V əsrdən sonrakı dövrdə də intensiv inkişafından, ölkənin iqtisadi, mədəni və siyasi həyatında onun daha fəal iştirakından xəbər verir. Elə isə mərzbanlığın mərkəzi hansı zərurət nəticəsində ölkənin əsas şəhərindən aran ərazidə yerləşən Bərdəyə köçürülüb? Fikrimizcə, bu, hər şeydən öncə, Mehranilərin timsalında Girdiman vilayətinin hərbi-siyasi cəhətdən güclənməsi və faktiki olaraq onun Sasani İranından asılı olmaması ilə əlaqədardır. Sonda Qəbələnin tarixi ilə bu və ya digər dərəcədə məşğul olanlara onu da xatırlatmaq istərdik ki, 461-ci ildə qədim Azərbaycan dövləti olan Albaniyanın paytaxtı deyil, sadəcə Sasani mərzbanının iqamətgahı Qəbələdən Bərdəyə köçürülüb. Qəbələ ayrı-ayrı tarixi dövrlərdə Sasani və Bizans imperiyaları, Ərəb xilafəti və Xəzər xaqanlığı ordularının, habelə şimaldan köçərilərin Albaniya ərazilərinə olan dağıdıcı hücum və basqınları zamanı dəfələrlə çox ciddi dağıntılara məruz qalıb. Monqolların, Teymurilərin və Qızıl Orda birləşmələrinin Albaniyaya olan yürüşləri və ərazidə baş vermiş hərbi toqquşmalar zamanı Qəbələyə dəfələrlə çox ciddi ziyan dəyib. Lakin bütün bu dağıntılara baxmayaraq, şəhər yenidən dirçələrək XVIII əsrin əvvəllərinədək ölkənin iqtisadi, siyasi, hərbi, dini və mədəni həyatında mühüm rol oynamaqda davam edib.

(Ardı növbəti nömrəmizdə).